**AzXP Seçki Komissiyası iclasının 25№li PROTOKOLU**.

**10.02.2025 il** ("whatsapp" üzərindən).

**İclasda İŞTİRAK etdilər (7nəfər):**

Rasim Əlizadə, Kəmalə Mehdiyeva, Şəmsəddin Camiyev, Cavanşir Abbasov, Oktay Ömərov, Bəxtiyar İsmayılov, Fikrət Qəhrəmanov

**İclasın GÜNDƏLİYİ:**

1. AzXP SK-na yeni 3 (üç) nəfər üzvün qəbul edilməsi.

2. AzXP –nə 2-ci (Əlavə) seçkilərin keçirilməsi vaxtının təyin edilməsi.

3. Namizədlərin qeydiyyat müddətinin təyin edilməsi.

4. Səsvermə vaxtının təyin edilməsi.

5. Namizədlərin təbliğat və təşviqat müddətinin təyin edilməsi.

6. Namizədlərlə əlaqə telefonlarının müəyyən edilməsi.

7. Namizədin "Bildiriş" anketinin tərkibinin müəyyən edilməsi.

8. Namizədlik vermə hüquqları.

9. Namizədlərin təbliğatının aparılmasında 5 Media kanalın dəstəyi (qaydalar, vasitələr və metodlar).

**ÇIXIŞLAR:** Gündəlikdəki məsələlər üzrə R. Əlizadə, K. Mehdiyeva, Ş. Camiyev, O. Ömərov, . çıxışlar etdilər.

**İclasda aşağıdakı QƏRARLAR qəbul edildi:**

**1**. AzXP Nizamnaməsinin 4.3.2.3. və 4.4.4.bəndlərinə uyğun olaraq, Seçki Komisiyasında boş qalmış yerlərə Xalq Parlamentinin iclasında seçilmiş aşağıdakı şəxslər SK üzvləri sırasına daxil edilsin:

1.1. Şəmsəddin Camiyev,

1.2. Bəxtiyar İsmayılov,

1.3. Fikrət Qəhrəmanov.

**2**. AzXP Nizamnaməsinin 5.8.bəndinə əsasən AzXP-nə **2-ci (Əlavə) seçkilərin keçirilməsi vaxtı** 11.04.2025-ci il Bakı v. Ilə saat 20:00-a təyin edilsin.

**3.** Namiizədlərin "Bildiriş" anketləri AzXP SK tərəfindən 11.02.2025-ci il saat 8:00-dan 18.03.2025-ci il Bakı v. ilə saat 20:00-a qədər **qəbul edilsin və qeydiyyata alınsın.**

**4**. Namizədlərin **təbliğat və təşviqat kompaniyası** 25.02.2025-ci il saat 8:00-da başlanılsın, 03.03.2025-ci il Bakı v. Ilə 23:00-da **başa çatdırılsın.**

**5.** AzXP Nizamnaməsinin 5.9. və 5.10. bəndlərinə əsasən **səsvermə müddəti 7 günərzində**, yəni 05.04.2025-ci il saat 00:00-dan 11.04.2025-ci il Bakı v. Ilə saat 20:00-a qədər təyin edilsin.

**6**. Namizədlər aşağıdakı **"**whatsapp" nömrələri vasitəsi ilə **əlaqə yaratmaqla** qeydiyyata alınsın:

6.1**. +46 70-776 03 03,**

6.2. **+46 79-341 57 09.**

**7.** SK-na **"Bildiriş**"lə müraciət etmiş şəxslər aşağıdakı bəndlərdə tələb olunan

məlumatları yazılı təqdim etdikləri halda **namizəd kimi qeydə alınsınlar**:
7.1. Adı, soyadı, atasının adı.
7.2. Doğulduğu yer  və tarix.
7.3. Təhsili, ixtisası, peşəsi.
7.4. Ailə vəziyyəti.
7.5. Partiya mənsubiyyəti.
7.6. Yaşadığı ölkə.
7.7. Vətəndaşlığı və şəxsiyyət vəsiqəsinin surəti.
7.8. Qısa tərcümeyi-halı və fəaliyyəti.
7.9. Bir ədəd fotoşəkil.

7.10. Tərcümüyi-hal, əmək və ictimai-siyasi fəaliyyəti haqqında 2-3 dəqiqəlik video-çarx.

**8.** Azərbaycan Respublikasının aktiv seçki hüququ olan bütün vətəndaşları, özü və ya valideynlərindən biri  əvvəllər AR  vətəndaşı olmuş şəxslər AzXP millət vəkilliyinə namizəd ola bilərlər (AzXP Nizamnaməsi, maddə 1.1. və 4.2.1.).

**9**. Qeydiyyatdan keçmiş namizədlər öz təbliğatlarını “Media Birliyi” üzvü olan 5 Youtube kanalında və digər sosial şəbəkələrdə apara bilərlər:

9.1. Namizədlərə  təbliğat və təşviqat aparmaq üçün heç bir məhdudiyyət qoyulmur.

9.2. Namizədələr təbliğat kompaniyasında “AzXP millət vəkilinin (namizədin) etik davranış kodeksi” nin tələblərinə riayyət etməlidirlər.

9.3. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçilik yayan, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin əleyhinə, Xalq Parlamentinin Nizamnamə tələbləri əleyhinə fəaliyyət göstərən şəxs Xalq Parlamentinə seçkilərdə iştirak edə bilməz, onun heç bir qurumunda təmsil oluna bilməz (AzXP Nizamnaməsi, maddə 1.4.).

9.4. AR Konstitusiyasının 56-cı maddəsi,  AR Seçki Məcəlləsinin 12.1. maddəsi və AzXP Nizamnasinin 1.1. və 4.2.1. maddələrinə uyğun olaraq, 18 yaşa çatmış, özü, və ya valideynlərindən biri AR vətəndaşı olan, və yaxud, əvvəllər AR vətəndaşı olmuş şəxslər **səsverməde iştirak etmək hüququna** malikdirlər.

**Sədr:      R. Əlizadə**

**Katib:  K. Mehdiyeva.**